# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN YUNUS OĞUZ HAQQINDA DƏYƏRLİ FİKİRLƏRİ

Yunus bəy haqqında nə ağılsız, nə də ürəksiz danışmaq mümkün deyil. Onun yazdıqları demək olar ki, şəxsiyyəti ilə eynilik təşkil edir. Əsərlərinin hər bir obrazına elə təsvir verir ki, sanki təkcə əsər deyil, həm də özünü yaradır. Onun tarixi romanları əsasən böyük şəxsiyyətlərə həsr edilib. Bu əsərlər digərlərindən fərqli olaraq kifayət qədər orijinaldır. Əsərlərində tarixi faktlara həddindən artıq sədaqətlik nümayiş etdirib, tarixçi səviyyəsində sıralayıb. Əsərlərin əsas obrazlarının yaradılmasında fundamentallıq müşahidə olunur. Çalışır ki, obrazı bir tarixi abidə kimi yaratsın. Yunus Oğuzun tarixi romanları daha çox modelizm düşüncəsi ilə ərsəyə gəlib. Yəni, o, əsərlərində obrazı çox dərin təhlillərlə yox, ştrixlərlə təqdim etməyə üstünlük verir.

O, bizim tarixi roman yazanlar içərisində yeganədir ki, bu qədər çoxlu mövzulara müraciət edib. Maraqlıdır ki, birdən-birə niyə Azərbaycanda Nadir şah haqqında əsərlər yazılmağa başladı, niyə əvvəllər bu mövzuya müraciət edilmirdi? Həmişə 17-18-ci əsrlər diqqətdən kənarda qalıb. Lakin Azərbaycan xalqı millət kimi məhz o dövrdə formalaşıb. Məhz bu dövrü Yunus Oğuz araşdırmağa başlayıb. Onun əsərlərində bu dövrün çoxlu tayfalarının adları çəkilir, onların qarşılıqlı münasibətləri araşdırılır. Yəni, etnososial proseslərin dərinliklərinə gedə bilib.

**Nizami Cəfərov,**
**akademik**

Yunus Oğuz tarixi romanlar yazarkən bəzən tarixçilərdən belə artıq şəkildə araşdırma, təhlil aparır. Onun əsərlərindən tarixi yenidən öyrənmək olur. Yunus Oğuz gerçək tariximizi Azərbaycan cəmiyyətinə təqdim edir. Xüsusilə onun əsərlərində millilik qabarıq əks olunur. Yunus Oğuz əsərlərində milli dəyərləri əsas tutaraq onları bir daha cəmiyyətə çatdırır.

Yunus Oğuz müasir dövr, müstəqillik dövrü tarixi ədəbiyyatımıza roman yaradıcılığında bir yenilik gətirib. O, əsərlərində qeyd etdiyim kimi milliliyi, azərbaycançılığı əsas götürür. Həmçinin, Yunus Oğuz qələmə aldığı əsərlərdə, romanlarda dövlətçiliyimizin əsaslarını ortaya qoyur.

**İsa Həbibbəyli,**
**akademik**

Xalq arasında belə bir deyim var: Doğum tarixi bayram günü ilə üst-üstə düşən insanı xoşbəxtlik gözləyir. Yunus Oğuzun doğum günü onun özünün də ömrünü, şüurlu həyatını həsr etdiyi milli mətbuatımızın doğum gününə təsadüf edir. Yəqin hələ uşaqkən hər dəfə ad gününü evdə bayram edən doğmaları milli mətbuatımızın hansısa ildönümü münasibətilə onu təbrik ediblər və balaca Yunus lap elə uşaq yaşlarından H. Zərdabini tanıyıb, klassik mətbuatımızın ənənələrinə bələd olub.

Yunus Oğuz polifonik - çoxtərəfli yaradıcı şəxsiyyətdir. O, Azərbaycan bədii ədəbiyyatında öz yerini çoxdan təsdiqləmiş bir yazıçıdır. Milli tariximizə sevgi dolu bir ömür yaşayan Yunus Oğuz M. S. Ordubadi, M. İbrahimov, İ. Muğanna və s. kimi böyük sənətkarlara ünvanlanaraq bu tarixi bədii həqiqətlərə çevirib və geniş oxucu kütləsinin, ədəbi tənqidin rəğbətini qazanıb. O, belə bir həqiqəti qəbul edib ki, tarixi təkcə dərsliklərlə öyrətmək azdır. Azərbaycan xalqının bədii ədəbiyyata olan marağı diqtə edir ki, bu tarixi həm də bədii formatda öyrədəsən. Yunus Oğuz bu həqiqətə sadiq qalmaqla bədii əsərlərini tariximizə, həm də təkcə Azərbaycan yox, bütövlükdə türkçülüyün tarixinə həsr etdi və etməkdədir.

Yunus Oğuz ciddi və peşəkar mətbuat adamıdır. Onun təsis etdiyi "Olaylar" qəzeti, "Olaylar" İnformasiya Agentliyi özünün peşəkarlığı, hadisələrə dəqiq, qərəzsiz və həm də vətəndaşlıq mövqeyindən yanaşması ilə özünəməxsus jurnalistika məktəbi yaratmışdır. Yunus Oğuzun rəhbərlik etdiyi mətbuat sistemi (məhz sistemi) Azərbaycan və azərbaycançılığı qürurla daşıyan qurumlardır.

**Cahangir Məmmədli,**
**professor**

Kimliyini bilməyən şəxs gələcəyə parlaq addımlarla gedə bilməz. Çünki tarix elə bir yaddaşdır ki, o insanların gələcək taleyində böyük rol oynayır. Ona görə də bizim tariximizin müxtəlif səhifələrinə işıq salan əsərlərin ərsəyə gəlməsinə ehtiyac var. Yunus bəyin işi də tariximizi romanlar şəklində insanlara təqdim etməkdən ibarətdir. Tariximizi daha çox gənclərə oxutmanın yolu kimi romanların çapı vacib şərtdir. Bu zaman gənclərimizin daha çox kütləvi şəkildə tariximizi oxumasına nail olmaq mümkündür. Yunuz bəyin isə bu istiqamətdə işləri çox böyükdür. Bu günə qədər yazdığı çox dəyərli romanları var ki, həmin əsərlər türk dünyasının tarixinə həsr edilib. Türk dünyasının tarixi içərisində Azərbaycan türklərinin, bizim yaşadığımız çoğrafi məkanda keçdiyimiz yol, böyük sultanlarla bağlı yazdığı faktlar çox önəmlidir. Mən gənclərlə görüşdə onlara "Nadir şah" kitabını çox həvəslə hədiyyə edirəm. Nəzərə alaq ki, mənim də ailəmin bir tərəfi Nadir şahın ailəsidir. Sovet dönəmində Nadir şah öyrənilməyən, öyrənilməsinə icazə verilməyən şəxslərdən idi. Yunus bəy isə bu ziddiyyəti aradan götürə bildi. Təkcə Nadir şah deyil, digər sərkərdələrlə bağlı əsərlər ərsəyə gətirdi

**Qənirə Paşayeva,**
**siyasətçi**

Yunus Oğuzu tarixi roman və pyeslər yazmağa vadar edən səbəb nədir,-deyə düşündüm. Birincisi, belə güman etdim ki, əsas səbəb onun heç də tarixçi olmasında deyil, illər boyu ürəyində mürgüləyən, sonrasa birdən-birə ayılan yazıçı şövqünün get-gedə şiddətlənməsidir. Necə ki, bəzi aktyorlar dönüb istedadlı bir rejissora çevrilirlər. Bu məqamda mən Yunus Oğuzun əksər romanlarına dəyərli müqəddimələr yazmış Nizami Cəfərovun bir fikrini xatırlayıram: "Yunus Oğuzun çox zəngin elmi-tarixi düşüncəsi var, tarixə dərindən bələdliyi var, tarixlə işləmək mədəniyyəti, eyni zamanda, çox müasir və güclü bədii təfəkkürü var. Tarixdən yazan yazıçı üçün bunların hər ikisi mühüm məsələdir".

İkincisi, qəti əminəm ki, ən yaxşı, sanballı tarixi romanlarımız böyük vətənpərvərlik duyğusu ilə qələmə alınır və vətənpərvərlik duyğusu istənilən tarixi romanın məzmununa da, bədiiliyinə də təsirsiz qalmır. Yunus Oğuzun tarixi romanlarında da bunu hiss edirik.

**Vaqif Yusifli,**
**filologiya elmləri doktoru**

Tarixi roman sıradan bir ədəbi əsər deyil, mədəni irsin, milli kimliyin əksidir. Yunus Oğuzun tarixi romanları da əks etdirdiyi dövrün ab-havasını mükəmməl şəkildə əks etdirir, onun əsərlərindəki millilik tarixi mövzuya bədii dərinlik qazandırır və tarixi keçmişin daha yaxşı anlaşılmasına, yadda saxlanılmasına vəsilə olur.

**Elnarə Qaragözova,**
**filologiya üzrə fəlsəfə doktoru**

Yunus Oğuz yaradıcılığında Azərbaycan tarixinin müxtəlif dövrlərinə müraciət edib. Attiladan başlayaraq Əmir Teymur, Nadir Şah, Təhmasib, Çingiz xandan da yazıb. Hətta Azərbaycan tarixindən kənara da çıxaraq bütün türk dünyasının tarixinə müraciət edib. Amma Azərbaycan tarixinə aid olan əsərləri bizim tarixin ən mühüm dövrlərini əhatə edir, o cümlədən səfəvilər dövrünü. Məlum olduğu kimi səfəvilər dövrü Azərbaycan tarixində özəl yeri olan bir dövrdür. O, Səfəvilər dövlətini dünyaya Azərbaycan dövləti kimi təqdim edir. Bunun da tarixi və elmi əsası var. Azərbaycan sözü bir çox mənbələrdə işlənir. Hətta "Baburnamə"də Azərbaycan dövlət adı kimi işlənib. İndi bəzi erməni tədqiqatçıları təbliğ etməyə çalışırlar ki, Azərbaycan sözü və Azərbaycan dövləti olmayıb. Əslində bu iddialar yalan bir nəzəriyyə və böhtandır. "Səfəvi Şeyxi" romanının əhəmiyyəti ondan barətdir ki, Səfəvi dövləti yaranmamışdan əvvəl onun ideologiyası ortaya qoyulub. Bu dövlətin hansı dini ideologiya əsasında yarandığı əsərdə əksini tapıb. Çox maraqlıdır ki, bəzi fars şovinistlərinin iddialarına görə, türklər ancaq vuruşmağı bilirlər. Amma burada göstərilir ki, türklər həm də İrfanın təlimini həyata keçirməyi bacarırlar. Səfiyyəddindən başlamış dövlət qurucusu Şah İsmayıla qədər olan dövr həmin bu təlimlərin-Səfəvi fəlsəfəsinin, Səfəvi ideologiyasının bəhrəsidir. Bu isə o deməkdir ki, Səfəvi dövləti nəzəri əsası olmadan yaranmayıb. Mənə elə gəlir ki, bu romanın əsas qayəsi budur ki, Səfəvi dövlətinin dini-ideoloji, elmi-fəlsəfi əsasları qədim Səfiyyəddindən gəlir, sonra Şeyx Cüneyddən keçir, sonra Şah İsmayılın atası Heydərdən keçir və bütün bu nəsil faciəvi şəkildə həlak olur. Bunların həlak olması bahasına Şah İsmayıl gəlib möhtəşəm bir dövlət qurur.

**Anar,**
**Xalq yazıçısı**

Hamımız kimi, tanınmış yazıçı-jurnalist Yunus Oğuzun da yaşı artır. Zaman yerində dayanıb duran və kiməsə güzəştə gedən deyil. Ancaq Yunus mənim fikrimdə həmişə qayğısını, dərdini içində gizlədərək toplum arasına xoş ovqatla çıxmağı bacaran, istiqanlı, üzündəki saflıq və səmimiyyəti itirməmiş gənc, işıqlı bir oğlandır. Bununla belə, illər ərzində Yunus çox dəyişilib. Həm ictimai-siyasi həyatda, həm də yaradıcılıq mühitində xeyli iş görüb, irəliləyib, təsis etdiyi qəzet və informasiya agentliyi, yazdığı povest, pyes və romanlarla, elmi araşdırmaları ilə özünü oxuculara istedadlı bir qələm sahibi kimi tanıtdırıb və sevdirib. Yunus Oğuz bizimlə bir yerdə 1988-ci ildən çətin, ağrılı, qan və itkilərlə, dünyanın ədalətsizlikləri və xəyanətləriylə dolu, ancaq canlı bir tarixin içindəydi. Ancaq xəyalı uzaq keçmişlərdə –türkün həsrətini çəkdiyimiz böyüklük və bütövlüyünün memarı və sərkərdəsi olmuş kişilərin yanındaydı. Söhbət zamanı tez-tez Atilladan, Çingizxandan, Şah Xətaidən örnəklər gətirərdi. Bunlar təsadüfi deyilmiş... Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra Yunus Oğuz bir müddət Prezident Aparatında işlədi. Ancaq rəsmi görəvinə baxmayaraq, qələm əlindən düşmədi. Az sonra bütövlükdə ədəbi yaradıcılıq və mətbuat işinə başladı: "Olaylar" qəzetini təsis etdi, eyni adlı informasiya agentliyi yaratdı. Araşdırmalarını davam etdirməkdən də əl çəkmədi. Bir-birinin ardınca pyes, povest və romanlar ərsəyə gəldi. O, gənclik sevgisinə sadiq qalaraq bu əsərlərində Atilladan, Nadir şahdan, Şah Təhmasibdən uzaqlaşmadı; haqlarında çoxlu kitab, elmi əsər yazılmış böyük şəxsiyyətlərin portretlərini yenidən çəkmək risqindən qorxmadı. Siyasi iddiaların, hakimiyyət ehtiraslarının bəzilərini meymun kimi oynatdığı, cilddən-cildə saldığı bir vaxtda qələmə sarılmaq təkcə oxucuya və xalqa xidmət deyil, həm də özünü, şəxsiyyətini qorumaq vasitəsidir.

**Sabir Rüstəmxanlı,**
**Xalq şairi**

XX əsrin əvvəllərində Məmməd Səid Ordubadi, XX əsrin ortaları və sonlarında Fərman Kərimzadə Azərbaycan tarixindən bəhs edən tarixi romanlar yazmağı öz üzərlərinə götürmüşdülərsə, XXI əsrdə bu şərəfli yolu Azərbaycan ədəbiyyatında Yunus Oğuz davam etdirir. Müasir oxucular Yunus Oğuz imzasını görəndə, adını eşidəndə ilk olaraq Azərbaycan tarixini yada salırlar. Yunus Oğuzun əsərlərində Orta Asiyada baş vermiş tarixi hadisələrdən tutmuş, bu günümüzə qədər olan hadisələr mühüm yer tutur. Tarixi əsərlər yazmaq bədiilikdən başqa, həm də tətqiqatçılıq tələb edir. Yunus Oğuz bunun öhdəsindən ustalıqla gəlir. O əsərlərinə ədəbiyyatşünas filoloq həssaslığı ilə yanaşır.

**Səyyad Aran,**
**Milli Məclisin deputatı**

Yunus Oğuzun tarixi romanları bir sıra gizli mətləblərə aydınlıq gətirir. Bu onun tarixi dərindən bilməsi ilə birbaşa əlaqəlidir. O, türk dünyası tarixinə dərindən yiyələndiyi üçün öz fikirləri ilə məclislərdə hamının diqqətini cəlb edir, hamını heyrətləndirir. İlk əvvəllər onun tarixi mövzularda publisistik əsərləri var idi. Sonradan bədii əsərlər yazmağa başladı və üç pyesi ərsəyə gəldi. Xüsusən, "Nadir şah" əsəri Azərbaycan tarixinin çox diqqətçəkən bir dövrünə həsr olunmuşdu və xeyli də maraq doğurdu, mübahisələrə səbəb oldu. "Nadir Şah" romanı Yunus Oğuzun bədii romançılığında ilk böyük uğurlarından biri oldu. Ondan sonrakı ədəbi fəaliyyətində də Yunus bəy yenə də tarixi biliklərini göstərdi, tarixi hadisələrə öz yanaşmasını ortaya qoydu

**Rəşad Məcid,**
**Azərbaycan Mətbuat Şurasının sədri**

Bəli, zənnimcə nə dediyimi və yaxud nə demək istədiymi anladınız. Axı, müdriklər sözü elə-belə boşuna deməyiblər və demirlər də. Qardaşı tanımaq üçün, ona güvəncin, ona inancın mahiyyətinə varmaq üçün mütləq yoldaşlıq etməlisən. Bax, mən də artıq yazılarından tanıyıb, kitablarından oxuyub sonra da dostlaşdığım və hər görüşümüzdə də "Sözün Generalı!" - deyə müraciət etdiyim Yunus Oğuzla yol-yoldaşı olandan sonra onun sözünün və özünün içini də gördüm. Səmimiyyətinin, sadəliyinin və bu sadəlikdəki istiqanlılığın vurğunu oldum. Gördüm ki, bu insan zəhmətkeş olduğu qədər də duyumludur... duyumlu olduğu qədər də sadədir... Sadə olduğu q ədər də mehribandı... mehriban olduğu qədər də anlayışlıdı...

**Əbülfət Mədətoğlu,**
**Əməkdar jurnalist**

Milli azadlıq hərəkatının yetirmələrindən, fəal iştirakçılarından biri də Yunus Oğuzdur. Ancaq yaxşı ki, o, siyasət bataqlığına girmədi, siyasət oyunlarında iştirak etmədi, elmi araşdırmalarının arasını kəsmədi. Bu gün biz Yunus Oğuzu iki cəhətdən qiymətləndiririk: ümumtürk və onun tərkib hissəsi kimi Azərbaycan tarixinin ciddi araşdırıcısı, tarixin qaranlıq məqamlarını, mübahisəli məsələlərini tədqiq edən, yeni fikir söyləyən ciddi tədqiqatçı- tarixçi-türkoloq və çox istedadlı yazıçı kimi...

**Sabir Bəşirov,**
**tənqidçi-ədəbiyyatşünas**

Mən Yunus bəyi təbii ki, sözündən tanımışam. 90-cı illərdən başlayaraq onun müxtəlif mətbuat səhifələrində imzası ilə qarşılaşmışam. Və hər dəfə də bu qarşılaşmalar mənim addaşıma

öz izini naxışlayır. Görmüşəm, duymuşam ki, qiyabi tanıdığım Yunus Oğuz imzası getdikcə mənə doğmalaşır. Və bu doğmalıq...

Müdriklərin belə bir kəlamı var. O kəlamda soruşulur ki, "qardaşın necə adamdı?". Cavab da verilir ki, "yol yoldaşı olmamışam!".

Yunus Oğuz müasir dövrdə Azərbaycan tarixi romanının ən əsas yaradıcılarından biridir. Müəllifin çox sayda tarixi romanı var. Bu romanlarda Azərbaycan dövlətçilik tarixi, Azərbaycan milli dövlətçilik təfəkkürü, azərbaycançılıq idealları ön mövqedə dayanır və əsas aparıcı xətti müəyyən edir. Müəllifin tarixi romanlarında tarix və bədii düşüncənin balansı doğru tapılmışdır. O tarixi reallığı, obyektivliyi qoruyub saxlamaq şərtilə bədii təfəkkür, bədii yanaşma, yazıçı mövqeyinə münasibəti ifadə edərək romanlarında tarixiliklə bədiiliyin yerini, rolunu münasib balansda apararaq son nəticədə onu bədii əsər kimi meydana qoymağı bacarır. Yunus Oğuzun obrazları tarixdəki missiyasına tamamilə uyğundur.

**Elçin Hüseynbəyli,**
**yazıçı-publisist**

İnsanın xoşbəxtliyi nə tutduğu mövqedən, yaşının az və ya çox olmasından asılı deyil. İnsan xoşbəxtliyini o zaman dərk edir ki, illər onun taleyində gərəkli bir iz buraxır və o da özündən sonra bu həyatda iz qoyduğunu əvvəlcədən hiss edir. Həm də elə bir iz ki, bu izlə gedənlərin yolu hər zaman ucalıqlardan keçir. Allahın bəxş etdiyi ömrün məsuliyyətini aylarla, illərlə çiyinlərində daşımaq xoşbəxtliyini hamı bacara bilmir. Əslində bu elə çətin bir iş də deyil. Sadəcə çiyinlərini bu məsuliyyətin altına vermək lazımdır. Mənim tanıdığım Yunus Oğuz illərdi bu məsuliyyətin yükünü daşıyır- yorulmadan, usanmadan. Nədi bu yük? Bu, ədəbiyyatdı, SÖZdü, bədii yaradıcılıqdı, publisistikadı. Ki... Yunus bəy bunların hər birini ayrı-ayrılıqda canına-qanına hopdurub. Ona görə də çiyinləri ağrımır, dünyanın ən müqəddəs SÖZ yükünü bütün çalarları ilə gələcəyə ötürür. Bu günün ağrı-acısını, varını-yoxunu sabaha ötürmək hər adamın bacardığı iş deyil. Bunun üçün yuxusuz gecələr, saatlarla ac-susuz qalmaq, stol arxasında oturmaqdan düz qəddini əymək var. Başın ağrıması, gözün zəifləməsi, yazmaqdan barmaqların mazol olması var. Amma bütün bunlar o qədər xoş, o qədər müqəddəsdir ki, SÖZlə "yarışa çıxan" Yunus Oğuz heç bir zaman geri çəkilib, əlinin arxasını yerə qoymayıb. SÖZ onu bu günkü ali məqama ucaldıb.

**Züleyxa Nadir,**
**jurnalist**

Tarixlə bağlı əsər yazmaq olduqca çətindir. Çünki, arxiv, kifayət qədər məlumatlar, şahidlər var. Belə bir şəraitdə tarixi əsər yazmaq dərin tarixi bilik tələb edir. Yunus Oğuz Nadir şahdan başlayaraq geriyə qayıtdı. Yaxşı olardı ki, tarixi əsərlər yazılarkən ardıcıllıq olsun. Hesab edirəm ki, gələcək fəaliyyətində Yunus Oğuz bu amili də nəzərə alacaq. Yunus Oğuzun romanları maarifçi, öyrədici, təxəyüllü əsərlərdir. Bu baxımdan həmin əsərlər gənc nəsil üçün əhəmiyyətlidir. "Səfəvi Şeyxi" romanının bədii tərəfi sənətkarlıqla işlənib. Odur ki, sərbəst və rahat oxunur, asan anlanılır. Hesab edirəm ki, belə silsilə tarixi əsərlərin davam etdirilməsinə ehtiyac var.

**Əjdər Ol,**
**şair-publisist**

Yunus Oğuzu illər öncə tanıdım. Bir siyasətçi, yazıçı kimi yox, müəllim kimi. Siyasi Natiqlik Məktəbi yaratmışdı. Pul qazanmaq üçün yox, öyrətmək üçün. Öyrətdi də. Məntiq, fəlsəfə, politologiya dərsləri deyirdi bizə. Vaxtının çox hissəsini pulsuz-parasız şəkildə bizə ayırırdı. Tək bir məqsədi özümüzü, kimliyimizi dərk etməyi idi. Bu məktəbi keçənlərin böyük əksəriyyəti bu gün cəmiyyətdə söz sahibi olan insanlardır. Və şəxsən mən buna görə Yunus Oğuza borcluyam. Milli düşüncə sahibi olan Yunus Oğuz bizə milli kimliyimizi tanıtdı. Yunus Oğuzu illər öncə tanıdım. Bu dəfə jurnalist kimi. O zamanın ən nüfuzlu qəzetlərindən olan "Olaylar" qəzetinin yaradıcısı idi. Bu dəfə məni qəzetdə işə götürdü və müəllimliklə yanaşı həm də baş redaktorum oldu. Amma heç vaxt baş redaktor kimi rəftar etmədi. Əksinə mənim sabah baş redaktor ola bilməyim üçün yenə öyrətdi. Yunus Oğuzu illər öncə tanıdım. Bu dəfə yazıçı kimi. Tarixi roman janrına müraciət edən Yunus Oğuz romanlarında türk nəhəngliyini, Azərbaycan izini oxucuya öz üslubunda çatdırdı. Romanlarında dərviş ruhunu yenidən oxucuya çatdırdı. Romanlarında türk qüdrətini yenidən bizlərə xatırlatdı. Ruh dünyasını, idrakı oxucuya oxucunun başa düşəcəyi dildə anlatdı.

**Eldəniz Elgün,**
**jurnalist**